# AZƏRBAYCAN TARİXİ FƏNNİNİN TƏDRİSİNDƏ BLUM TAKSONOMİYASININ TƏTBİQİNİN ŞAGİRDLƏRDƏ BACARIQ VƏ VƏRDİŞLƏRİN FORMALAŞMASINDA ROLU VƏ ƏHƏMİYYƏTİ

**Ədalət Allahverdiyev,**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: aedalet91@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* M.M. Əmirov,
*tarix.ü.fəls.dok.,dos.* Q.İ. Bəşirov

***Açar sözlər:*** *Taksonomiya, bilik, bacarıq, vərdiş, tarix, metodika, təfəkkür*
***Ключевые слова:*** *Таксономия, знания, умения, навыки, история, методика, мышление*
***Key words:*** *Taxonomy, knowledge, abilities, habits, history, method, thinking*

Taksonomiya – yunan sözüdür (taxus – qayda ilə yerləşmə + romos – qanun deməkdir). Təlim məqsədlərinin taksonomiyası tədris prosesini elmi-metodik səviyyədə planlaşdırmaq və onun nəticəsini ölçmək imkanı verir. Bu sahədə aparılan araşdırmalarından belə bir qənaətə gəlinir ki, “Təlim məqsədlərinin taksonomiyası ayrı-ayrı fənlər və siniflər üzrə konkretləşdirilməli, dövlət standartları və yaş normativləri kontekstində açıqlanmalıdır. Bu mühüm məsələni metodistlərimiz, psixoloq və pedaqoqlarla birlikdə həll etməlidirlər”**.**

Müxtəlif zamanlarda alimlər bu məsələyə diqqət yetirmiş, ona öz münasibətlərini bildirmiş və təhsil taksonomiyaları haqqında mülahizələr söyləmişlər. Təlim məqsədlərinin taksonomiyası 30-cu illərdən başlayaraq tədqiqat obyekti kimi müxtəlif alimlər tərəfindən araşdırılmış, koqnitiv proseslərin, intellektin strukturunu əks etdirən konseptual modellər yaradılmışdır. R.V.Tayler (1930), B.Blum (1956), G.Gilford (1967), Vilson (1967), Bruner (1979) və başqaları tərəfindən idrak (koqnitiv), emosional (affektiv), psixomotor (qeyri-iradi), fəaliyyətlər üzrə taksonomiyalar işlənilmişdir. Taksonomiyaların müəyyən olunmasında, ona aid təsnifatın aparılmasında yanaşmalar, demək olar ki, eyni olmuşdur [2, s.20].

Dünya pedaqoji psixologiyası təcrübəsində taksonomiya konsepsiyası Amerika psixoloqu B. Blumun adı ilə bağlıdır. Onun konsepsiyasında öyrənmə taksonomiyaları mahiyyətcə fon hadisəsi kimi özünü göstərir. Taksonomiyanın ağırlıq mərkəzi isə bilavasitə inkişaf taksonomiyaları ilə şərtlənir.

Ümumtəhsilin məzmununu, müasir inkişaf istiqamətlərini araşdıran M.N. Rıjakov kurikulum ideyasını açıqlayarkən təlim məqsədlərinin şəbəkəsini yaratmışdır. Blumun taksonomiyalarının meydana gəlməsini mütərəqqi bir hal kimi dəyərləndirmişdir. Fikirlərini ümumiləşdirərkən belə bir qənaətə gəlmişdir ki”, “arabanı atdan qabağa qoşmaq mümkün olmadığı kimi, məqsədi müəyyənləşdirməzdən əvvəl məzmunu işləyib hazırlamaq mümkün deyildir” [5, 7].

Halbuki müasir təhsil nəzəriyyəsi “öyrənmə + inkişaf + mədəniyyət” taksonomiyasına xüsusi diqqət yetirməyi tələb edir. Lakin dünya təcrübəsində üç komponentli (“öyrənmə+inkişaf+mədəniyyət”) taksonomiya yaradılmayıb. Bu sahədə ilk uğurlu addım Azərbaycan psixologiyasında atılıb.

Professor Əbdül Əlizadənin taksonomiyası üçtərkibli taksonomiya adlandırılır. Orada şagird şəxsiyyətinin formalaşdırılması öyrənmə inkişaf mədəniyyət parametrləri üzrə nəzərdə tutulur. Bu taksonomiya səriştələrə əsaslanan yeni məzmunun yaradılması baxımından mühüm didaktik əhəmiyyət daşıyır [2, 20].

Kurikulumlarda fənlərin məzmunu bacarıqlar şəklində ifadə edilən təlim nəticələrindən (standartlardan) ibarətdir. Təhsil pillələri və hər bir sinif üzrə müəyyən olunmuş bu təlim nəticələrinin ( standartların) əsasında üç tərkibli taksonomiya durur.

"Təhsilin məzmunu dedikdə, həyata, əməyə hazır olmaq üçün məktəblilərin yiyələnməli olduqları bilik, bacarıq və vərdişlər sistemi başa düşülür" fikrini irəli sürən M.N. Skatkin və V.V. Krayevski qeyd edirlər ki, bu anlayış özündə dörd komponenti birləşdirir: 1) dünya (ətraf aləm) haqqında biliklər; 2) bacarıq və vərdişlər-tipik stereotip fəaliyyətin icrasının rasional üsulları; 3) yaradıcı (qeyri-standart) fəaliyyət təcrübəsi; 4) dünyaya və bir-birinə münasibətlərin (ruhi, mənəvi, estetik) normaları; yəni tərbiyəlilik normaları [4, 94].

"Məzmun standartı-təhsil alanların bilik , bacarıq səviyyəsinə qoyulan dövlət tələbidir". Məzmun standartları iki tərkib hissədən ibarətdir: bilik və fəaliyyət. Onların psixoloji əsasını "Üç tərkibli" taksonomiyanın "ÖYRƏNMƏ" və "INKIŞAF" səviyyələri təşkil edir. Məzmun standartları hazırlanarkən prof. Ə.Ə. Əlizadə taksonomiyasının "Öyrənmə səviyyəsində" faktları, faktların seçilmə üsullarını, təsnifatı, qiymətləndirmə meyarlarını, və s. haqqında verilən biliklər əsasında mahiyyəti açıqlama, problemi həll etmək üçün informasiyanı konkret hadisələrə tətbiq etmək kimi sosial, perspektiv, intellektual bacarıqların mənimsənilməsi nəzərdə tutulmuşdur. Taksonomiyanın öyrənmə səviyyəsi məzmun standartlarının ilk tərkib hissəsini təşkil edir.

"İnkişaf səviyyəsi" isə məzmun standartlarının fəaliyyət tərkib hissəsinin əsasını təşkil edir. Tənqidi təfəkkürün, fikrin müstəqilliyinin, ağlın dərinliyi, genişliyi, çevikliyi, sürətliliyi və qənaətcilliyinin, divergent və konvergenf təfəkkürün inkişafı sayəsində şagirdlərdə analiz, sintez, mücərrədləşdirmə, problemli situasiyalardan çıxış yolu tapmaq, və s. bu kimi bacarıqlar formalaşır.

Beləliklə, şagirdlər təlim prosesində sadəcə öyrənmir, öyrənə-öyrənə inkişaf edirlər. Həmin prosesin son nəticəsində mədəniyyətə (hissi, ünsiyyət, kommunikativ, əxlaqi, iradi, milli-mənəvi, dünyəvi), dəyərlərə malik şəxsiyyət kimi formalaşır. Hisslər mədəniyyəti, ünsiyyət mədəniyyəti, kommunikativ mədəniyyət, əxlaqi mədəniyyət, iradi mədəniyyət, milli-mənəvi mədəniyyət, dünyəvi mədəniyyət- "Üç tərkibli" taksonomiyanın "Mədəniyyət" səviyyəsini təşkil edir. Təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsi olan şagird nailiyyətlərinin qiymətləndirilməsi məhz "Mədəniyyət" səviyyəsini təşkil edən dəyərlərə istinad edir. Qiymətləndirmə Milli Kurikulumun tərkib hissəsidir. Bu o deməkdir ki, "Üç tərkibli taksonomiya" Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyasının da elmi-psixoloji əsasını təşkil edir.

Şagirdlərin təlim boyu düşünmə bacarıqlarının inkişaf etdirilməsi müəllimin qarşısında duran ən mühüm məsələlərdən biri, bəlkə də birincisidir. Artıq insanın yalnız yadda saxlamaq funksiyası tələblərə cavab vermir, müasir cəmiyyət əldə edilmiş informasiyanı istehsal və istifadə edən insan tələb edir.

Düşünmə vərdişləri iki hissəyə ayrılır: mikro-vərdişlər və makro-vərdişlər. Mikro-vərdişlərə tətbiq və təhlil, makro-vərdişlərə isə problemi həlletmə və qərar çıxarma aid edilir. Əgər şagird hər hansı bir problemi həll etmək üçün informasiyalardan istifadə etmək bacarığına yiyələnirsə, deməli, onda düşünmə vərdişləri formalaşmışdır.

Ümumtəhsil məktəbləri üçün hazırlanmış tarix fənni üzrə yeni fənn proqramının (kurikulumun) məzmunu nəticələr, yəni standartlar şəklində ifadə olunmuşdur. Hər bir standart öz müqabilində bilik və fəaliyyətdən ibarətdir: şagird nəyi bilir və o bildiyini necə nümayiş etdirir. Standartların bilik və fəaliyyət hissələri özləri də qruplara ayrılır.

Deklarativ, prosedural və konsektual biliyin, idrak, ünsiyyət və psixomotor isə fəaliyyətin kateqoriyaları hesab olunur.

Şagirdlərin idrak fəaliyyətlərinin inkişafı mühüm amillərdən biridir. Blum taksonomiyası idraki bacarıqlar kimi götürülmüşdür. Bu taksonomiya idrak fəaliyyətləri sadədən mürəkkəbə doğru altı kateqoriyaya görə təsnif edir və bu vərdişlər şagirdlərdə mikro-vərdişlər formalaşdırır.

Amerika psixoloqu B.Blumun taksonomiyası 4 prinsip əsasında yaradılmışdır: Praktik istiqamət prinsipi - taksonomiya məqsədəuyğunluq nəzəriyyəsini əks etdirməli, müəllim-praktik üçün effektiv vasitə olmalıdır.

Psixoloji prinsip: taksonomiya psixologiya elminin müasir nailiyyətlərinə əsaslanmalıdır.

Məntiqlilik prinsipi: taksonomiya məntiqi baxımdan tamamlanmış və mükəmməl daxili bitkinliyə malik olmalıdır.

Obyektivlik prinsipi: məqsədlərin təsnifatı onların dəyərlərinin təsnifatı demək deyil.

Taksonomiyanın prinsipi hər bir yuxarı mərtəbənin ondan aşağıdakı mərtəbənin üzərində qurulmasıdır. Yəni, yuxarı səviyyələr aşağı səviyyədə nail olunmuş bacarıq və vərdişlərdən asılıdır. Şagird əgər dördüncü mərhələdəki (təhlil) tapşırığı yerinə yetirə bilirsə, deməli o artıq aşağıdakı mərhələlərdəki (bilik, anlama, tətbiq) tapşırığı yerinə yetirmişdir.

Blum taksonomiyasının təsnifatı: Bilmək, anlamaq, tətbiq etmək, təhlil etmək, sintez etmək və dəyərləndirmək. Taksonomiya – iyerarxiya əsasında qurulmuş əlaqəli sistemdir. Bu sistem müəllimin fəaliyyətinin keyfiyyətini qiymətləndirmək üçün əlverişli vasitədir. Taksonomiya göstərir ki, hansı səviyyədə uşaqları öyrətmək olar və hansı səviyyədə onları öyrədirlər [1, 402].

Şagird əgər nəyisə xatırlayırsa, tanıyırsa, göstərirsə, sadalayırsa, adlandırırsa bu bilmə mərhələsidir. Bilmə mərhələsi yadasalma və yaddasaxlama kimi bir kateqoriyadır. Bu mərhələdə şagird yaddaşında qoruyub saxladığı informasiyanı xatırlayır. Burada şagirddən bildiyini dəyişmək və ya bildiyindən istifadə etməklə yeni informasiya yaratmaq tələb olunmur. Məsələn, əgər dünənki dərsdə şagird ilkin olaraq Manna dövlətinin idarə olunmasını mənimsəmişdisə, sonrakı dərsdə ona veriləcək sual dünən aldığı biliyi əhatə edərək, “hansı dövlət idarəetmə sistemlərini bilirsiniz?” olmalıdır. Ümumiyyətlə, idrak taksonomiyasının bilmə mərhələsi digər mərhələlər üçün baza rolunu oynayır. Digər mərhələlərin də reallaşması üçün bu mərhələnin rolu böyükdür. Lakin bütün dərs boyu yalnız bu mərhələdən istifadə problemlər yaradır, şagirdin düşünməsinə, aldığı biliklərin tətbiqinə və inkişafına əngəl törədir.

Əgər şagird izah edirsə, nümunə göstərirsə, öz sözləri ilə ifadə edirsə, fərqləndirirsə bu anlama mərhələsidir. İkinci mərhələdə şagird yadında saxladığı informasiyanı anlamalıdır. Müəllimin verəcəyi anlama səviyyəli suallar vasitəsilə şagird cavabın üzərində müxtəlif yanaşmalarla düşünür. Problemlərin həlli üçün əvvəl şagirdin təklif olunan ideyanı anlaması vacibdir. Misal üçün aşağıdakı suallardan istifadə etmək mümkündür:

– Albaniya və Atropatena dövlətlərinin idarəetmə sistemləri arasındakı oxşar cəhətləri müəyyənləşdir.

– İki hökmdar və iki imperator idarəetməsində olan dövlət adı de. Bu idarəetmələr arasında fərq nədir?

Şagird problem həll edirsə, müəyyən nəticələr əldə etmək üçün informasiyaları tətbiq etdirsə, istifadə edirsə, bu tətbiq mərhələsidir. Tətbiq mərhələsində adından da məlum olduğu kimi şagirdin yadına saldığı və anladığı informasiyanı qarşısına çıxan hər hansı problemi həll etmək üçün istifadə etməsidir. Tətbiq mərhələsində şagird problemlə qarşılaşır, keçmiş biliklərdən istifadə edərək həll yolu seçir və həll edir. Məsələn, xəritə üzərində ölkələri tipoloji xüsusiyyətlərinə görə qruplaşdırır, relyef formalarını müxtəlif əlamətlərinə görə təsnif edir, miqyasa və cəhətlərə əsasən planını tərtib edir və s.

Hissələrə ayırmaq, strukturu müəyyənləşdirmək təhlil (analiz) mərhələsidir. Təhlil mərhələsində şagird ünsiyyətin əsasını təşkil edən strukturu tapır, onların bir yerdə necə mövcud olduğunu göstərmək üçün nəyisə parçalayır, ayırır, motivləri müəyyənləşdirir. Taksonomiyanın bu mərhələsi anlamanın üzərində qurulur, lakin ondan üstündür. Təhlil zamanı şagird hər hansı hadisə və ya vəziyyətdə müxtəlif fikirləri bir araya gətirərək yekun fikir nümayiş etdirir. Məsələn, araşdırmalar nəticəsində səyyahların topladıqları bilikləri sistemləşdirmək, ölkələrin idarəetmə sistemini təhlil etmək, dövlətlərin inkişafında idarəetmə tələblərini analiz etmək, dövlətlərin Roma və Yunanıstanla əlaqəliyini təhlil etmək və s.

Sintez mərhələsi yeni ideyaların yaranması üçün köhnə ideyalardan istifadə, verilmiş faktların ümumiləşdirilməsi və bir neçə sahə üzrə biliklərin əlaqələndirilməsi. Məsələn, su hövzələrini çirkləndirən əsas mənbələrin araşdırılması və onların mühafizəsi ilə bağlı təkliflərin hazırlanması, ekoloji problemlərin həlli yollarına aid layihələrin hazırlanıb təqdim edilməsi, xammal ehtiyatlarının çatacağı illərin proqnozlaşdırılması və s [3].

Məsələ haqqında mühüm qərarlar çıxarmaq, mübahisələri və ya fikir müxtəlifliklərini həll etmək, münasibət bildirmək, qarşılaşdırmaq dəyərləndirmə və ya qiymətləndirmə mərhələsidir. Qiymətləndirmə sualları şagirdlərin fikirlərini, düşüncələrini əsaslandırmağı, mühakimə etməyi və bunların nəyə əsaslandığı ilə bağlı xüsusiyyətlər təqdim etməyi tələb edir. Hər

hansı bir məsələnin şagird tərəfindən qiymətləndirilməsini istəyən müəllim, bu məsələnin qiymətləndirmə meyarlarını düzgün müəyyən etməyi bacarmalı və şagirdin cavabını da bu meyarlarla qiymətləndirməlidir.

Son nəticə də onu deyə bilərik ki, taksonomiyalar müəllimə dərs üçün hazırlayacağı təlim məqsədlərini müəyyənləşdirməsinə kömək edir və təlim məqsədlərinin əlaqəliliyini və əhatəliliyini təmin edir. Məqsədlərin səviyyələr üzrə (bilik, anlama, tətbiq, təhlil, sintez, dəyərləndirmə) əlaqəli şəkildə müəyyənləşməsi təlim prosesində taksonomiyaların müxtəlif mərhələlərini əhatə etmək imkanı verir və müəllimi yalnız məlumatları yadda saxlamağı öyrətmək kimi uğursuz tədris fəaliyyətindən qoruyur. Bu baxımdan taksonomiyalar, təkcə müəllimin fəaliyyətinə rəngarənglik qatmır, həm də şagirdin nail olacağı təlim məqsədlərinin əhatə dairəsi baxımından geniş və dəqiq olmasını təmin edir.

**Problemin aktuallığı**. "Təlim məqsədlərinin taksonomiyası ayrı-ayrı fənlər və siniflər üzrə konkretləşdirilməli, dövlət standartları və yaş normativləri kontekstində açıqlanmalıdır. Bu mühüm məsələni metodistlərimiz, psixoloq və pedaqoqlarla birlikdə həll etməsi zəruridir".

**Problemin yeniliyi** ondan ibarətdir ki, Azərbaycan tarixinin təlimində istifadə olunan taksonomiyaların yeni xüsusiyyətləri və didaktik imkanları müəyyənləşdirilərək sistemli şəkildə öyrənilərək ümumiləşdirilib.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, Azərbaycan tarixinin təlimində sistemli şəkildə istifadə olunan taksonomiyalar ümumtəhsil məktəblərinin çoxsaylı tarix müəllimləri və tarixin tədrisi metodikası və metodologiyası sahəsində tədqiqat aparan gənc tədqiqatçılar istifadə edə bilər.

## ƏDƏBİYYAT

1) Əmirov M.M Tam orta məktəblərdə tarixin fəal-interaktiv təlimi metodikası: Dərs vəsaiti. Bakı: ADPU-nun nəşri, 2011.
2) Azərbaycan məktəbi, 2015, № 3
3) https://metodiktovsiyye.blogspot.com/2016/01/blum-taksanomiyas-oyrnmnin-uc-novu.html
4) Савин Н.В. Педагогика. М.: Просвещение, 1972.
5) Рыжаков М.В. Содержание общего среднего образования: парадоксы развития // Школьные технологии, 2005, № 1

**A. Allahverdiyev**

## HISTORY OF AZERBAIJAN IN STUDENTS ABILITIES AND SKILLS IN THE FORMATION OF THE ROLE AND IMPORTANCE OF THE APPLICATION OF SUBJECT TEACHING IN BLOOM TAXONOMY

### *SUMMARY*

Taxonomy is a Greek word (taxus-placement with rule + romos - law). The taxonomy of educational objectives allows to plan the learning process at the scientific - methodological level and measure its outcome.

The contents of the new subject curriculum for history subjects prepared for secondary schools are summarized as standards. Each standard consists of knowledge and action in exchange for itself: the student knows what he is and shows how he knows. The knowledge and activities of the standards themselves are also grouped into groups.

**А. Аллахвердиев**

## РОЛЬ И ЗНАЧЕНИЕ ФОРМИРОВАНИЯ У УЧАЩИХСЯ УМЕНИЙ И НАВЫКОВ ПРИ ПРИМЕНЕНИИ ТАКСОНОМИИ БЛУМА В ПРЕПОДАВАНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

### *РЕЗЮМЕ*

Таксономия - это греческое слово (taxus - placement with rule + romos - law). Таксономия образовательных целей позволяет планировать процесс обучения на научно-методологическом уровне и измерять его результат. Содержание новой предметной учебной программы по предмету истории, подготовленной для средних школ выражено в стандартах. Каждый стандарт состоит из двух частей, включающих знания и деятельность. Знания и деятельность в самих стандартах также подразделяются на группы.

**Redaksiyaya daxil olub:** 26.10.2017